**V.K.MİRZƏYEVA**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
*e-mail: mirzayevavusala91@gmail.com*
**:https://orcid.org/0000-0002-8153-7429**

**Azərbaycan Dillər Universiteti**
(Bakı şəh., R.Behbudov küç., 134)

**10.62021/0026-0028.2025.4.287**

# RUS ƏDƏBİYYATINDA MAGİK REALİZM

***Xülasə.*** *Məqalədə rus ədəbiyyatında magik realizmin müxtəlif dövrlərdə və fərqli müəlliflərin yaradıcılığında formalaşması və inkişaf dinamikası nəzərdən keçirilir. Mövzunun nəzəri əsasları ilk olaraq Frans Rohun 1923-cü ildə təqdim etdiyi"magik realizm" anlayışına əsaslanmaqla izah edilir.Bu estetikanın rus ədəbi kontekstində XIX əsrdən başlayaraq (N.Qoqol), XX əsrdə yazıb- yaratmış Mixail Bulqakov, Andrey Platonov kimi yazıçıların əsərlərində ifadə üsulları təhlil olunur. Həmçinin magik realizmin rus ədəbiyyatında qrotesk, karnaval, absurd və psixoloji gerçəklik elementləri ilə sintez olunaraq özünəməxsus bədii model kimi formalaşdığı fikri, eləcə də ictimai-siyasi transformasiyalar fonunda dövrlər üzrə hansı semantik dəyişikliklərə məruz qalması problemi araşdırmaya cəlb olunub.*

***Açar sözlər**: Magik realizm, qrotesk, mistika, "ikili reallıq", sosial kataklizm*

**Giriş.** XX əsr ədəbiyyatında özünəməxsus estetik səciyyəsi ilə seçilən magik realizm termini müasir ədəbi-nəzəri diskursda geniş yayılmış olsa da, hələ də dəqiq və ümumqəbul edilmiş elmi tərifə malik deyil. Bu anlayış, əsasən, Latın Amerikası ədəbiyyatı kontekstində, xüsusilə Xorxe Luis Borxes, Qabriel Qarsiya Markes, Xuan Rulfo və Alexo Karpentyer kimi müəlliflərin yaradıcılığı ilə əlaqələndirilir. Nadir hallarda isə bu janr alman ədəbiyyatı və Avropa modernizmi fonunda nəzərdən keçirilir. Lakin qlobal ədəbi müstəvidə magik realizmin müxtəlif formalarda təzahür etməsi və milli ədəbi kontekstlərdə fərqli səciyyə daşıması onun qeyri-müəyyən və çoxqatlı mahiyyətə sahib olduğunu göstərir.

Fərqli ədəbi ənənələrə mənsub, poetik baxımdan bir-birindən kəskin şəkildə ayrılan bədii nümunələrdə magik realizmin elementlərini müəyyənləşdirmək üçün ilk növbədə, bu anlayışın tarixi-mədəni mənşəyi və formalaşma şəraiti nəzərdən keçirilməlidir. Bu baxımdan, magik realizm anlayışının ədəbi diskursda ilk dəfə hansı kontekstdə ortaya çıxdığını araşdırmaq vacibdir.

Bu termin ilk dəfə 1923-cü ildə alman sənətşünası Frans Rohun "Karl Hayderin şərhi problemi. Post-ekspressionizmlə bağlı qeydlər" (*"Nach-Expressionismus"*) adlı məqaləsində işlədilmişdir. Frans Roh burada "post-ekspressionizm" anlayışını "sehrli realizm"lə əvəz etməyi təklif edərək bu ifadəni ilkin mərhələdə təsviri sənət və rəssamlıq sahəsinə aid etmişdir [10]. Onun fikrincə, ekspressionist sənətkarlar, dünyanın dağılmaqda olduğu bir dövrdə, insan təcrübəsinin ən dərin, ekzistensial təbəqələrini ifadə etməyə çalışaraq ətraf aləmdəki hadisələrə esxatoloji yanaşma sərgiləmişlər. Frans Rohun vurğuladığı kimi, ekspressionist estetikanın mərkəzində duran daxili xaos, "obyektiv dünyanın qeyri-reallığından zövq almaq"la yanaşı, gerçək həyatın fövqəl təzahürünü – yəni sehrini dərk etmək ehtiyacından doğur. Bu "sehr" yalnız mistik təsəvvür kimi deyil, həm də insanın dünyanı fərqli bir baxış bucağından qavrama cəhdi kimi çıxış edir, "təbii qüvvələrin vasitəçiliyi olmadan" ətraf məkanı və ya insanın özünü dəyişdirməyə yönəlmiş fövqəltəbii güc kimi izah edilir [4, s.158]. Bu yanaşma göstərir ki, "magik realizm" anlayışı ilkin mərhələdə sırf fantaziyanın deyil, reallığın poetik surətdə

təhrif olunmuş, lakin tamamilə uydurma hesab olunmayan bir müstəvidə təqdimatını ifadə edən estetik kateqoriya kimi formalaşmışdır. Beləliklə, magik realizm həm gerçəkliyin sərhədlərini genişləndirən, həm də onu dərk etməyin alternativ yollarını açan bədii metod kimi ortaya çıxır.

Magik realizm termini müxtəlif mənbə və kontekstlərdə fərqli şəkildə izah edilsə də, onun əsas fəlsəfi-estetik dayaqlarından biri kimi "ikili reallıq" modeli bir çox ədəbi tədqiqatların müzakirə obyektinə çevrilmişdir. Bu model, öz mahiyyətinə görə yalnız sehrli realizmə məxsus olmayan, lakin janrın konseptual əsasını təşkil edən mühüm kateqoriyalardan biridir. Ədəbiyyatda və incəsənətdə reallığın iki paralel təbəqədə – maddi və metafizik səviyyədə mövcud olduğu fikri, ilk dəfə romantik dünya modelində aydın şəkildə formalaşmışdır. Magik realizm isə bu konsepsiyanı daha geniş spektrdə, yaradıcılıq və gerçəklik arasındakı sərhədləri pozaraq yenidən düşünür. Bu mənada magik realizm poetikasında yaradıcı təsəvvür və gündəlik reallıq qarşıdurmaya deyil, sintezə əsaslanır. Reallıqda var olan obyektlərə və hadisələrə yönəlmiş baxışda gizli mənaların axtarılması, bədii idrak prosesinin əsas hərəkətverici qüvvəsinə çevrilir. Burada insanın yaşadığı dünya yalnız fiziki deyil, həm də semiotik və metafizik məkan kimi dərk edilir. Əsərlərdə bu sintez qrotesk, absurd və irreal elementlər vasitəsilə təqdim olunur, lakin məqsəd oxucunu qeyri-reallığa sürükləmək deyil, əksinə, reallığın özündə mövcud olan izaholunmazı anlamağa sövq etməkdir. Beləliklə, sehrli realizmin bütün modellərində rasional təfəkkürün sərhədlərini aşaraq, yeni varlıq qatlarına çıxmaq ehtiyacı özünü göstərir. Bu, mədəni arxetiplərin, mifoloji kodların və şərti simvolların yenidən aktivləşməsi ilə həyata keçirilir.Bu zaman dil sadəcə ifadə vasitəsi deyil, varlığı qavrama və yenidən qurma alətinə çevrilir. Bu cür yanaşma dünya ədəbiyyatında müxtəlif dövrlərdə fərqli formalarda təzahür etmişdir.

**Rus ədəbiyyatında magik realizmin ilkin təzahürləri.** Magik realizm termini Latın Amerikası ədəbiyyatı ilə assosiasiya olunsa da, onun əsas komponentləri və estetik kodları rus ədəbi ənənəsində çox daha erkən dövrlərdə, xüsusilə XIX əsrdə formalaşmağa başlamışdır. Rus sehrli realizminin ilkin təzahürlərini Nikolay Qoqolun yaradıcılığında müşahidə etmək mümkündür. "Burun", "Şinel", "Portret" və xüsusilə "Viy" kimi əsərlərdə gündəlik reallıqla mistik, metafizik hadisələrin və varlıqların təmas nöqtələri yaradılır. Qoqolun əsərlərində baş verən irreal hadisələr – insan burnunun şəxsi həyat yaşaması və ya ölü ruhların şəhər əhalisinə çevrilməsi sırf fantaziya deyildir. Bu hadisələr real sosial və mənəvi mühitin satirik-mistik təfsiridir. Qoqol reallığı yalnız təqlid etməklə kifayətlənmir, əksinə, onu deformasiyaya uğradaraq dərin mənəvi böhranı və insanın iztirabını təcəssüm etdirir. Onun yaradıcılığında sehrli realizm "normal" reallığın içində gizlənmiş "qeyri-adi"nin poetik ifşasıdır. Bu həm də "ikili dünya" modelinin rus ədəbiyyatında ilk ciddi –"görünənlə görünməyən arasındakı sərhəd"lərin ifadəsidir. Qərb tədqiqatçılarının və rus formalistlərinin əsərlərində dəfələrlə vurğulandığı kimi, Qoqolun bədii aləmi mistik, irreal və absurd həyatı ən incə detallarla əks etdirən məkandır [6, s.43]. Polşalı tənqidçi İ.Yarosinskaya, "Qoqolun Taras Bulbası mif, yoxsa mistifikasiyadır?" barədə suala belə bir cavabla çıxış edir: "Qoqol tarixi mistifikasiyalaşdırmaqdan ötrü mifdən geniş şəkildə istifadə edirdi" [7]. Həm folklorun, həm də pravoslav dünyagörüşünün sintez olunduğu "qoqolsayağı" bədii məkan, magik realizmin rus variantının ilkin forması kimi dəyərləndirilə bilər. Yazıçı "Dikanka yaxınlığındakı xutor axşamları" silsiləsində xüsusilə "May gecəsi" kimi hekayələrdə mif və gündəlik kənd həyatı arasındakı sərhədləri silir. Nikolay Qoqol bu əsərlərdə oxucuya tanış məkan və obrazlar içində sehrli hadisələri təqdim edir. İblis, cadugərlər, ruhlar və başqa qeyri-maddi varlıqlar süjetin içərisinə reallıqdan fərqlənməyəcək şəkildə daxil olur. Əslində, burada magik realizmin əsas xüsusiyyəti olan "möcüzənin normal qarşılanması" prinsipinə rast gəlmək mümkündür. Çünki əsərin qəhrəmanları fövqəltəbii hadisələrə şübhə ilə deyil, gündəlik həyatın bir hissəsi kimi yanaşırlar.

Yazıçının "Burun" və "Şinel" hekayələrində isə magik elementlər birbaşa sosial və psixoloji simvolizm səviyyəsində ortaya çıxır. "Şinel"də qəhrəmanla bağlı reallıq sonda metafi-

zik bir müstəviyə keçir. Akaki Akakiyeviçin ruhunun şəhərdə dolaşaraq intiqam alması gündəlik həyatda baş verən fövqəladi hadisə kimi təqdim edilir. "Burun"da isə baş qəhrəmanın burnunun qoparaq müstəqil şəxsiyyət kimi Peterburq şəhərində dolaşması, absurda bənzər bir situasiya yaradır. Bu da ciddi metafizik və ontoloji sualların (görünüş və kimlik arasındakı gərginlik, bürokratik irrasionallıq) yaranmasına səbəb olur. Bu kontekstdə M.Baxtinin karnaval və qrotesk anlayışları əhəmiyyət daşıyır. O qeyd edirdi ki, "Burun", həm fiziki, həm sosial-psixoloji fenomen olaraq, qrotesk vasitəsilə sehrli realizmdə gerçəkliyin gizli mənalarını açan əsl nümunədir [1, s.243]. "Şinel"də isə obrazın köhnə paltosunun simvolik, demək olar ki, ruhani əhəmiyyət daşıması, qəhrəmanın ölümündən sonra şəhərdə bir "ruh" kimi dolaşması və insanların paltolarını oğurlaması ilə bağlı mifik səhnələr əsərin magik realizm çərçivəsində təhlil olunmasına imkan verir. Bu hekayədəki "reallıq" yalnız sosial tənqidlə məhdudlaşmır, həm də insanın yoxsulluq və cəmiyyət qarşısındakı gücsüzlüyünün mifləşdirilmiş poetik forması kimi çıxış edir [5, s.75]. "Burun" povestində bədii məkan və obrazlar qeyri-mümkünlük və məntiqsizliklə müşayiət olunaraq, reallığın konturlarını pozur və bürokratik sistemin saxtalığını ironik dillə ifşa edir. Burun obrazı insanın ayrılmaz hissəsi kimi yox, özbaşına, müstəqil mövcud olan varlıq kimi təqdim olunur ki, bu da realizmlə irrealizmin sərhədlərini aşır və təfəkkürə meydan oxuyur:

*"Burun mayorun üzünə baxdı və qaşlarını bir qədər çatdı.*

*– Siz səhv edirsiniz, hörmətli cənab. Mən özüm-özüməyəm. Üstəlik, aramızda heç bir yaxın münasibət ola bilməz. Vitsmundirin düymələrinə baxaraq deyə bilərəm ki, siz başqa bir idarədə xidmət edirsiniz.*

*Bunu deyib burun üzünü çevirdi və dua etməyə davam etdi"*[3, s.24].

Kovalyevun öz burnunu kilsədə dua edərkən görməsi elementi, sırf fantaziya deyil, ictimai reallığın qrotesk güzgüsüdür. Bu mistik eyni zamanda da absurd hadisə yazıçı tərəfindən tamamilə real həyat hadisəsi kimi təqdim olunur ki, bu da magik realizmin estetikasına uyğundur. Burun sahibindən daha yüksək statusda görünür, bu isə Çar Rusiyasında rütbənin, formal görünüşün insan mahiyyətindən üstün tutulmasına işarədir. Beləliklə mistik səhnə sosial tənqidin magik bədii vasitə ilə ifadəsinə çevrilir. Buradakı qrotesk elementlər sadəcə estetik seçim deyil, insanın cəmiyyət qarşısında məğlubiyyətinin fəlsəfi simvoluna çevrilir. Bu bədii üsullar XX əsr rus ədəbiyyatının avanqard və postmodernist müəlliflərinə güclü təsir göstərmişdir. Məsələn**,** Mixail Bulqakovun "Master və Marqarita" əsərində iblisin Moskvaya gəlişi reallığın içində baş verən magik hadisə kimi təqdim edilir və Qoqolun ironik-poetik üslubu burada yeni bir mərhələyə çatdırılır. Andrey Platonov isə reallığı parçalanmış, qeyri-müəyyənliklərlə dolu dünyada təqdim edərək, Qoqol ənənəsini informasiya cəmiyyəti və simulyakrlıq kontekstində yenidən şərh edir.

Beləliklə, Nikolay Qoqolun əsərlərindəki magik-realist və qrotesk dünya modeli, sonrakı dövrlərdə rus yazıçıları üçün estetik və fəlsəfi kontekstdə məhsuldar bir təmələ çevrilmiş, XX əsr və postsovet dövründə bu istiqamət çoxqatlı bədii modellərlə davam etdirilmişdir.

**Sovet dönəmi rus realistlərinin yaradıcılığında sosial kataklizmlər və magik təsvir.** Sovet ədəbiyyatında dominant ideoloji diskurs, realizmin sosiopolitik formasını önə çəksə də, Mixail Bulqakov və Andrey Platonovun kimi yazıçılar bu sərt çərçivələr daxilində alternativ poetik yanaşmalar axtarırdılar. M.Bulqakovun "Master və Marqarita" romanı XX əsr rus ədəbiyyatında magik realizmin ən parlaq nümunələrindən biri kimi gündəlik sovet həyatının reallığı ilə metafizik və fövqəlvarlıq qatlarının sintezini özünəməxsus şəkildə təqdim edirdi. Moskvanın gündəlik reallığı ilə şeytani və mistik qüvvələrin qarşılıqlı təsiri Bulqakovun reallığı paralel dünyalar kimi təqdim etməsinə işarə idi. Voland və müşayiətçiləri sıradan mistik obrazlar deyil, əksinə, adi həyatın içinə nüfuz etmiş etik-mifoloji simvollar kimi fəaliyyət göstərirlər. Roman həm də sovet mədəniyyətindəki totalitar nəzarətin reallığa baxışı necə təhrif etdiyini bədii şəkildə ifşa edir. Əsərin əsas süjet xətləri (Moskvada Volandın və onun müşayiətçilərinin fövqəltəbii fəaliyyəti, digər tərəfdən Ponti Pilat və İsanın hekayəsi) zamandan və

məkandan kənar mistik koordinatlarda birləşir [9, s.550]. Burada magik və real olan yalnız paralel şəkildə mövcudluğuna davam etmir, həm də bir-birini tamamlayaraq yeni bir estetik dəyərlər sistemi formalaşdırır.

Romanın magik realizm təzahürləri müəyyən məqamlarda özünü göstərir: kosmik və iblisvari varlıqların gündəlik həyatda mövcud olması, mistik və real zamanın üst-üstə düşməsi və "əlyazmaların yanmaması"[1] yalnız simvolik məna daşımır, həm də mətnin öz daxili poetikasını qurur. Magik realizmdə tez-tez rast gəldiyimiz bu tip "nəticənin səbəbdən öncə gəlməsi" fenomeni, burada yazı və yaddaş, repressiya və xatırlama anlayışlarının poetik fəlsəfəsini yaradır. Əsərdəki magik elementlər reallığın yerini tutmur, əksinə, onların mövcudluğu reallığın bir çox metafizik və etik aspektlərini görünən edir. Bu baxımdan Bulqakov, Latın Amerikası magik realizmindəki kimi xalq mifologiyasına deyil, daha çox xristianlıq, qnostik düşüncə və rus metafizik fəlsəfəyə istinad edir.Əsərdə, heç bir hadisə nə tam mistik, nə də tam realistik xarakter daşımır. M.Lipovetskinin sözləri ilə desək, "Bulqakovun magik realizmi – mistik təsəvvürlərlə ictimai absurdu üst-üstə qoyaraq reallığın təhrif olunmuş formasını deyil, onun gizli strukturlarını açır" [8, s.115]. Bulqakovun rus reallığını fövqəlreal və şeytani güclərlə birləşdirməsi, gerçəkliyin magik və metafizik düşüncə ilə vəhdətini göstərməsinə dəlalət edir. Roman boyunca "Volandın sirli tamaşası", "Yevnux Faqotun fəndləri", "Marqaritanın uçuşu" kimi onlarla mistik elementlər,bədii məkanı poetik və estetik ölçüdə deyil, həm də fəlsəfi və ideoloji planda müəyyənləşdirir. Burada fövqəltəbii hadisələr magik səhnələr yalnız dekorativ funksiya deyil,o mövcud reallığın dərin, çoxqatlı mahiyyətini üzə çıxarmağa və bu reallığa qarşı epistemoloji sorğulama aktı kimi çıxış edən vasitələrdir. Bu baxımdan, Bulqakovun magik realizmi, sosialist-realist poetikanın sərt strukturuna qarşı yönəlmiş estetik müqavimət forması kimi də anlaşılır. Repressiv sovet cəmiyyətinin ideoloji məhdudiyyətləri içində, müəllif fantastik motivlər vasitəsilə "gizli həqiqətləri" ortaya çıxarır, beləliklə də magik realizm burada həm bədii azadlığın**,** həm də etik təmizlənmənin məkanına çevrilir.

M.Bulkaqovun yaradıcılığı rus ədəbiyyatında magik realizmin necə dərin fəlsəfi və sosial funksiyalar daşıya biləcəyini parlaq şəkildə nümayiş etdirir. Belə ki, bu ədəbiyyatda magik realizm yalnız janr və ya texniki vasitə deyil, həm də ontoloji strategiyadır, müəllifin öz dövrünün reallığını ifadə etmək, ona münasibət bildirmək və eyni zamanda onun hüdudlarını aşmaq üçün seçdiyi alternativ bədii ifadə metodudur.

Mixail Bulqakovun "Master və Marqarita" romanında magik realizm, irrasionalın poetik estetikasını və metafizik dünyanın gerçəkliklə paralel təzahürünü modern sovet cəmiyyətinin ideoloji gərginliyi fonunda göstərirdisə, Andrey Platonovun "Çevenqur" əsərində bu estetika daha fərqli – ontoloji və ekzistensial dərinlik qazanır. Bulqakovda magik təzahürlər sirli bir katarsisə yol açırsa, Platonovun dünyasında sehrli realizm qrotesk, absurd və mənasızlıqla iç-içə təqdim olunur və ideoloji utopiyanın fəlsəfi tənqidinə çevrilir.

Hər iki yazıçı fövqəltəbii və irrasional elementlərdən istifadə edərək sovet gerçəkliyini dərk etməyə çalışsalar da, onların poetik metodları və semantik prioritetləri fərqli istiqamətlərə yönəlir. M.Bulqakovun metafizik gəlişmələrə açıq olan estetikası qarşısında, Platonovun dili və obrazlar sistemi daha çox "dağılmış ideologiyanın" poetikasını təcəssüm etdirir. "Çevenqur"da reallıq yalnız təhrif olunmur, həm də ideoloji manipulyasiya ilə deformasiyaya uğrayır. Burada magik realizm post-utopik məkanda varlığın qeyri-müəyyənliyi və insani şüurun parçalanması ilə sıx bağlıdır. Bu baxımdan Platonovun magik realizmi daha çox anti-utopik qroteskin, sehrli dekonstruksiyanın və ontoloji qeyri-sabitliyin ifadəsi kimi meydana çıxır. Onun dünyasında möcüzə yox, möcüzənin deformasiya olunmuş parodiyası baş verir – reallıq, ironik, mənasız və bəzən də dərin metafizik təcrid içində təqdim olunur. Platonovun poetikası daha çox ontoloji səviyyədə magik realizm elementləri ilə zəngindir. Onun dünyası real görünən, lakin daxili məntiqinə görə absurd və simvolikdir. İnsanların sosializm uğrunda mübarizəsi ilə bağlı fantaziyalar

[1]. Булгаков М.А. «Мастер и Маргарита». Москва, 1984. с. 327.

Platonovun dilində mifik, bəzən isə ironik simvolizm qazanır. O, reallığın dərinliyində gizlənmiş ekzistensial boşluğu və insanın metafizik aclığını nümayiş etdirir.

Andrey Platonovun "Çevenqur" romanı rus ədəbiyyatında magik realizmin fəlsəfi-estetik təzahürlərinin ən mürəkkəb və eyni zamanda paradoksal şəkildə əks etdirən nümunələrindən biridir. Əsərin strukturunda gerçəklik və mif, ideologiya və absurd, kainat və şəxsi mövcudluq kimi qarşı-qarşıya qoyulan reallıqlar bir növ poetik tərzdə üst-üstə düşür. "Çevenqur"da hadisələrin xronotopu və obrazların dünya ilə münasibəti rasional planda izah edilə bilməyəcək qədər dəyişikliyə uğrayıb. Burada əsas konsepsiya "utopiyanın bərqərar olması" ideyası, həm siyasi, həm də metafizik mənada ironik və qrotesk səviyyədə təsvir edilir.

M.Lipovetski,bunu "Platonovun poetikasında qeyri-mümkünlüyün estetikası" kimi dəyərləndirir: "Çevenqur, gələcəyin mümkünlüyünü sorğulayan yox, onun mümkünsüzlüyünü poetikləşdirən romandır" [8, s. 317].

A.Platonovun təsvir etdiyi dünya öz içində daima parçalanır və bu da magik realizmin "mifikləşmiş reallıq" ideyasını dekonstruksiya edir. Əsərdəki obrazlar Aleksandr Dvanov, Stepan Kopionkin və digər personajlar, sosialist utopiyanın sadə daşıyıcıları deyil, həm də dərin daxili boşluqla, mövcudluğun mənasızlığı ilə qarşı-qarşıya qalan varlıqlardır. Bu mənada Kopionkinin "Proletar hekayəsi" adlandırdığı düşüncələri, atı "Forpost"la apardığı absurd dialoqlar, bir tərəfdən siyasi ideologiyanın karikaturası, digər tərəfdən isə müasir insanın rasional və irrasional dünyalar arasında parçalanmasının metaforasıdır. Qəribədir ki, əsərdəki "möcüzəvi" anlar, məsələn, reallığın bir haldan digər hala keçidi, fövqəlinsan ideyası, ironik və qrotesk təhrifdə verilir. Platonovun magik realizmi, Latın Amerikalı yazıçıların "möcüzəvi gerçəklik" konsepsiyasından fərqli olaraq, heç bir kollektiv mifik yaddaşa əsaslanmır. Onun möcüzəsi daha çox ideoloji zərərliyin, mənəvi tənəzzülün və insanın daxili boşluğunun poetik semantikasına çevrilmişdir. Əsərdəki bədii məkan – Çevenqur şəhəri, bir tərəfdən mifik xilas yeri kimi təqdim olunur, lakin əsərin axırında həmin məkana "ölüm şəhəri" kimi baxılır. Nəticə etibarilə, "Çevengur" romanında reallığın sirli notlarla təqdimatı poetik xüsusiyyətdən daha çox fəlsəfi anlamda "sorğulama" alətidir.

Platonovun realizmi, utopiyanın dekonstruksiyası, reallığın çökməsi və sözün metafizik "boşluğu"nu ifadə edir. Qrotesk və absurd vasitəsilə ifadə olunan bədii fikirlər, oxucunu reallığı yenidən təhlil etməyə məcbur edir. Platonovun "Çevenqur" romanında magik realizmin təzahürləri, sovet utopiyasının dağıntıları arasında reallığın poetik dekonstruksiyası kimi çıxış edirsə, bu tendensiya post-sovet dövründə daha mürəkkəb və çoxqatlı formada yenidən bədii məkana daxil olur. Artıq ideoloji miflər, tarixi travmalar və məkan-zaman sistemləri yalnız ironiya və qrotesklə deyil, həm də postmodern estetikalar vasitəsilə yenidən qurulur.

XX əsrin sonlarında mövcudluğun qeyri-müəyyənliyini, simulyativ reallığı, identiklik böhranı və qlobal informasiya axınları qarşısında fərdin və ya subyektin parçalanmasını bədii dildə ifadə etmək üçün magik elementlər bir növ poetik müqavimət vasitəsinə çevrilir. Onlar reallığın qeyri-rasional tərəflərini üzə çıxarır və mətnin çoxqatlı semantik strukturu vasitəsi ilə həm fərdi, həm də kollektiv şüurun parçalanmış təcrübəsini əks etdirirlər. Əgər Platonovun qəhrəmanları ideoloji utopiyanın "qalıqları"içində gerçəklik axtarırdılarsa, XXI əsr postmodern nəsri artıq reallığın özünü şübhə altına alır. Bu nəsrin nümayəndələri dövrün siyasi-mədəni transformasiyalarını, həmçinin insan şüurunun qloballaşması və texnoloji simulyasiyalar şəraitindəki böhranını poetik şəkildə əks etdirir.

***Nəticə.*** Aparılan tədqiqat rus ədəbiyyatında magik realizm estetikasının ənənəvilikdən kənara çıxaraq, metafizik, psixoloji və mədəni-mifoloji qatlarla zənginləşmiş spesifik bədii model kimi formalaşdığını üzə çıxarır. Janrın inkişaf trayektoriyası Qoqolun əsərlərindəki poetik-mifoloji dildən başlayaraq, XX əsrdə Bulqakov və Platonov kimi müəlliflərin yaradıcılığında fəlsəfi, ideoloji və sosial təbəqələrlə daha da dərinləşir.

***Tədqiqatın elmi yeniliyi*** ondan ibarətdir ki, rus magik realizmi ilk dəfə sistemli şəkildə təhlil edilərək onun qlobal ədəbiyyatdakı digər modellərdən – xüsusilə Latın Amerikası ənə-

nəsindən, qrotesk, karnaval, metafizik və psixoloji elementlərin sintezi baxımından fərqləndiyi əsaslandırılır. Bununla yanaşı, janrın rus mədəniyyətinə xas dualist strukturlar – pravoslavlıq və milli mifologiya, realizm və absurd, utopiya və reallıq arasında davam edən gərginlik kontekstində inkişaf etdiyi sübuta yetirilir. Magik realizm bu kontekstdə yalnız poetik üsul deyil, həm də totalitarizmin, fərdi travmaların və varoluş dilemmasının estetik-fəlsəfi ifadə vasitəsi kimi dəyərləndirilir.

***Tədqiqatın nəticələri,*** janrın rus ədəbi təfəkküründəki funksional və semantik yükünü yeni metodoloji yanaşmalarla təhlil etməyə imkan verir və onun daha geniş elmi kontekstlərdə şərhini mümkün edir. Tətbiqi əhəmiyyəti baxımından bu nəticələr ədəbiyyatşünaslıq, müqayisəli ədəbiyyat və mədəniyyətşünaslıq sahələrində nəzəri baza kimi istifadə oluna bilər. Həmçinin ali təhsil müəssisələrində rus ədəbiyyatı və müasir estetik cərəyanlar üzrə aparılan dərs və seminarlar üçün əhəmiyyətli elmi-metodoloji material kimi çıxış edə bilər. Bu yanaşma magik realizmin yalnız mətn daxilində deyil, həm də daha geniş mədəni-fəlsəfi kontekstlərdə təhlilinə imkan yaratmaqla, müasir ədəbi tənqid üçün də aktual istiqamət müəyyənləşdirir.

## Ədəbiyyat

1. Бахтин, М.М. Творчество Франсуа Рабле и народная культура Средневековья и Ренессанса / М.М.Бахтин, – Москва, – 1965, – 548 с.
2. Булгаков, М.А. Мастер и Маргарита / М.А.Булгаков, – Москва, – 1984, – 451с.
3. Гоголь, Н. Собрание сочинений в девяти томах. Том третий. Повести / Н.Гоголь,– М., Русская книга, – 1994. – 117 с.
4. Ионин, Л.Г.Новая магическая эпоха // Логос, № 2, – 2004, – с. 156-173.
5. Террас, В. «Шинель» Гоголя в критике молодого Достоевского // Записки русской академической группы в США. Том XVII. – New York, – 1984, – 329 с.
6. Erlich, V. Gogol / V.Erlich, – Yale University Press, New Haven and London, – 1969.
7. Jarosińska, I.Taras Bulba – mit czy mistyfikacja? // Regiony, № 2, – 2001.
8. Lipovetsky, M. Russian Postmodernist Fiction: Dialogue with Chaos / M.Lipovetsky, – M.E. Sharpe, – 1999, – 331 p.
9. Proffer, E. Bulgakov: Life and Work. Ann Arbor, – MI: Ardis, – 1984, – 670 p.
10. Roh, F. Realismo mágico: Problemas de la pintura europea más reciente, trad. Fernando Vela, en Revista de Occidente / F.Roh, –1927, – 301 p.

**V.K.Mirzayeva**

## Magic Realism in Russian Literature

***Summary***

The article examines the dynamics of the formation and development of magical realism in Russian literature of different eras and by different authors. The theoretical foundations of the topic are first presented based on the concept of "magical realism" introduced by Franz Roh in 1923. This aesthetics is analyzed in the context of Russian literature, starting from the 19th century. In the 20th century, the means of expression in the works of such writers as Nikolai Gogol, Mikhail Bulgakov, Andrei Platonov are analyzed. The study also explores the idea that magical realism in Russian literature is formed as a unique artistic model through the synthesis of elements of grotesque, carnival, absurdity, and psychological reality, as well as the issue of semantic changes of this literary mode across different periods against the backdrop of socio-political transformations.

***Keywords:*** *Magical realism, grotesque, mysticism, "double reality", social cataclysm*

**В.К.Мирзаева**

## Магический реализм в русской литературе

***Резюме***

В статье рассматривается динамика становления и развития магического реализма в русской литературе разных эпох и у разных авторов. Теоретические основы темы впервые

излагаются на основе понятия «магический реализм», введенного Францем Роо в 1923 году. Данная эстетика анализируется в контексте русской литературы, начиная с XIX века. В XX веке анализируются средства выражения в произведениях таких писателей, как Николай Гоголь, Михаил Булгаков, Андрей Платонов. Также в исследование вовлечена идея о том, что магический реализм в русской литературе формируется как самобытная художественная модель через синтез элементов гротеска, карнавала, абсурда и психологической реальности, а также проблема семантических изменений этого направления в разные периоды на фоне социально-политических трансформаций.

***Ключевые слова:*** *магический реализм, гротеск, мистицизм, «двойная реальность», социальный катаклизм*

*Rəyçi: f.f.d. R.F.Əsədzadə*

*Redaksiyaya daxil olub: 03.10.2025*